**Ramil Ruslan oğlu BABAYEV**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
E-mail: Rbtlvrp@gmail.com
ORCID ID: 0000-0002-5755-670X

# VALİDEYN NƏZARƏTİ ANLAYIŞININ KONSEPTUALLAŞDIRILMASI

**Xülasə**

Uşaqlara qarşı pis rəftarın növlərindən biri olan valideyn nəzarətsizliyinin tərkib hissəsi olan elementlərin təsvir olunması məqalənin əsas məqsədidir. Məqalə sosial nəzarət və psixoloji nəzarət anlayışlarının açılışının verilməsi ilə başlayır. Burada gündəlik istifadədəki nəzarət anlayışı ilə sosiologiya və psixologiyada bu anlayışın ekvivalenti kimi istifadə olunan anlayışlara toxunulmuşdur. Valideyn nəzarətində uşağın yaşının, valideynin cinsinin və valideynlə övlad arasındakı kommunikasiyanın və s. də rolu bu deskriptiv məqalədə təsvir olunmuşdur.

**Açar sözlər:** *sosial nəzarət, psixoloji nəzarət, valideyn monitorinqi, müsbət ünsiyyət, özünüaçıqlama, laqeydlik.*

**UOT:** 316
**DOİ:** 10/54414/PTEJ9488

## Giriş

"Uşaq davranışları üzərində valideyn nəzarəti" anlayışı gündəlik həyatda və mediada qarşımıza tez-tez çıxan anlayışlardan biridir. Lakin bu anlayışın ailə sosiologiyası, təhsil psixologiyası və pedaqogika ilə bağlı ədəbiyyatlarda intensiv istifadə olunan anlayışlardan biri olmadığını görürük. Bu anlayış akademik səviyyədə daha çox valideynlik rollarının təhlili nöqteyi-nəzərindən araşdırılan anlayışdır və onun gündəlik həyatda geniş şəkildə istifadə olunması sosial elmlərdə mövcud olan hansı anlayışları əhatə etdiyini açıqlamaq baxımından konseptuallaşdırılmasını da tələb edir.

Sosial nəzarət və psixoloji nəzarət anlayışlarının təsvirini verərək mövzuya giriş etmək daha məqsədəuyğun görünür. Sosial nəzarət dedikdə, cəmiyyətin sosial nizamının qorunması mexanizmlərinin tətbiqi başa düşülür. Sosioloq Karl Mannheim bu nəzarət mexanizmlərini formal və qeyri-formal mexanizmlər kimi ayırır [19]. Formal mexanizmlərə təhsil, qanun, güc tətbiqi kimi vasitələri, qeyri-formal mexanizmlərə isə normaları, adətləri, dini və ideoloji baxışları və s. nümunə göstərə bilərik.

Sosial nəzarət nəzəriyyəsi, uşaqların əgər onun baş verməsinə maneə törədən sosial nəzarət mexanizmləri mövcud deyilsə, təbii olaraq deviant davranışa meylli olduğunu müdafiə edir [10, s. 30]. Beləliklə, qanun pozuntusu dominant norma və qruplarla zəif bağlar və nəticədə deviant davranışın qarşısını kəsən məhdudiyyətlərin olmaması səbəbindən baş verir.

Sosial nizamın qorunmasını ifadə edən anlayış olan sosial nəzarət anlayışından fərqli olaraq, psixoloji nəzarət anlayışı bir fərd tərəfindən başqa bir fərdin psixoloji vəziyyətinə və davranışlarına total nəzarət cəhdini ifadə edir [20, s. 71]. Bu, daha çox valideyn psixoloji nəzarəti anlayışı formasında istifadə olunur. Bu sahədəki bütün elmi ədəbiyyatda, zidd qütblər kimi həm uşaqlar üzərində nəzarətsizlik hallarına, həm də uşağa psixoloji nəzarət metodlarına qarşı tənqidi mövqe qoyulur. Valideyn psixoloji nəzarəti, valideynlərin uşaqlarının psixoloji dünyasını günahkarlıq hissi, sevgidən uzaqlıq və uşaqla bağlılıq manipulyasiyaları vasitəsilə idarə etmək cəhdlərindən ibarət davranış formasıdır [21, s. 2]. Psixoloji nəzarət, öz şəxsi ehtiyacları ilə həddindən artıq məşğul olan və uşaqlarının mövqeləri və məqsədləri ilə bağlı müvafiq empatiya hissi olmayan valideynləri səciyyələndirən bir haldır.

Beləliklə, psixoloji nəzarət edən valideynlər muxtariyyətə və müstəqil şəxsiyyətin formalaşmasına mane olurlar. Psixoloji nəzarət yeniyetmənin özünü idarə etməsinə və özünü necə hiss etməsinə müdaxilə etdiyi üçün, yüksək psixoloji nəzarət aşağı özünə hörmətin və depressiya və təklik kimi problemlərin internalizasiyasına qarşı daha həssas olmağa səbəb ola bilər.

**Əsas mətn**

Ən çox öyrənilən iki valideynlik üslubu dəstək (yaxud cavabdehlik, müsbət valideynlik) və davranışın tənzimlənməsidir. Burada dəstək uşağın mövqeyinin empatik və həssas şəkildə tanınmasını ifadə edir. Tənzimləmə ağlabatan şəkildə müəyyən edilmiş sərhədlər daxilində uşaqların davranışlarına nəzarət və monitorinq etmək, həmçinin intizam və gözləntiləri çatdırmaqda ardıcıl olmaq və uşaqlar üçün mütəşəkkil və proqnozlaşdırıla bilən mühit yaratmaqdan ibarətdir. Bu ölçülər əsasında adətən dörd valideynlik üslubu fərqləndirilir: Amiranə valideynlik (yüksək tənzimləmə və dəstək), avtoritar valideynlik (yüksək tənzimləmə, aşağı dəstək), güzəştli valideynlik (aşağı tənzimləmə, yüksək dəstək) və iştiraksız valideynlik (aşağı tənzimləmə və dəstək) [15, s. 1049-1065]. Bu tipologiya ən çox öyrənilmiş valideynlik tipologiyalarından biridir və o, Baumrind, Makkobi və Martin tərəfindən hazırlanmışdır.

Bu məqamda qeyd olunmalı olan vacib bir anlayış valideyn monitorinqidir. Valideyn monitorinqi, ümumiyyətlə, valideynlərin övladlarının olduğu yer, fəaliyyətləri və yoldaşları haqqında bilikləri kimi müəyyən edilir. Bu anlayışa, həmyaşıdların qurbanı olmalarının yeniyetmələrin inkişafına mənfi təsirlərini aradan qaldıra biləcək mümkün resurs kimi çox diqqət yetirilmişdir.

Stattin və Kerr "valideyn monitorinqi" ilə bağlı verdikləri tərifin – "uşağın olduğu yerlərə, onun fəaliyyətlərinə və uyğunlaşmalarına diqqət yetirməyi və izləməni əhatə edən, bir-biri ilə əlaqəli valideynlik davranışları toplusu" şərhində qeyd edirlər ki, monitorinqin bu tərifi valideynlərin uşaqlarının gündəlik fəaliyyətləri zamanı nə etdiklərini bilmək üçün onlara tətbiq etdikləri "nəzarət" anlayışı ilə üst-üstə düşür [6, s. 61]. Xüsusilə də, narkotik və psixotrop maddə istifadəsi tədqiqatlarında, valideyn monitorinqinin deviant həmyaşıd mənsubiyyətinə əhəmiyyətli təsir göstərdiyi irəli sürülür. Uşaqlarına sistemli şəkildə nəzarət edən valideynlərin övladları cinayət törətmə ehtimalı az olan, aşağı səviyyədə narkotik maddə istifadəsi olan, vaxtından əvvəl cinsi fəaliyyətdən qaçan və cinayətkar həmyaşıd qruplarında daha az iştirak edən şəxslər kimi təsvir edilir.

Valideyn monitorinqi və ya nəzarətindən irəli gələn biliklər yeniyetmənin riskli davranışlarını birbaşa azaltmaya bilər, lakin bu, anti-sosial səviyyələrə yüksələ biləcək uyğun olmayan davranışlara qarşı bufer rolunu oynadığı üçün əsasən müsbət fenomen kimi qiymətləndirilir.

Digər tərəfdən, bəzi valideynlər övladlarına müstəqillik verməklə, onlara araşdırma imkanları təqdim etməyi xoşlayırlar. Həddən artıq az nəzarət və bələdçilik təklif edən valideynlərin uşaqlarının həmyaşıdlarının mənfi təsir imkanları səbəbindən anti-sosial davranışa meyli ola bilər. Həddindən artıq qoruyucu və ya çox elastik olmaq valideyn nəzarətinin zəif olmasının əlaməti sayılır. Bütün bu dediklərimizin nəticəsində bu fikrə gələ bilərik ki, valideynlər və onların övladları arasında müsbət münasibət uşağın (xüsusən də yeniyetməlik dövründə) özünü açıqlamasını dəstəkləmək üçün gücləndirilməlidir ki, bu da çox güman ki, anti-sosial davranışların azalmasına səbəb olacaq.

Stattin və Kerr valideyn monitorinqi konsepsiyasını genişləndirərək, bunun sadəcə olaraq valideynlərin uşaqları üzərində nəzarəti ola bilməyəcəyini irəli sürürlər. Onlar qeyd edirlər ki, valideyn monitorinqi valideynlərin uşaqları haqqında məlumat əldə etmələrinə səbəb olan digər proseslərə inteqrasiya edilməlidir. Bununla bağlı olaraq, "özünü açıqlama" Stattin və Kerr tərəfindən "*valideynlərinin onlara nə qədər güvəndiyinə dair yeniyetmələrin qavrayışına uyğun olaraq yeniyetmələrin öz valideynlərinə inamla müşayiət olunan spontan açıqlıq dərəcəsi*" kimi təsvir edilmişdir [13, s. 1072-1085].

Müəlliflər göstərmişlər ki, valideyn nəzarəti ilə uşaqların qayda pozuntusu arasındakı əlaqə birtərəfli (yəni, yalnız valideyn-uşaq) deyil, ikitərəfli kimi yenidən şərh edilməlidir ki, bu da qarşılıqlı olaraq bir-birinə təsir göstərən valideynlər və uşaqların olduğu ailə sistemlərinin dinamik görünüşünü əks etdirəcək: "*profilaktik fəaliyyət göstərməli olan yaxşı valideyn-övlad münasibətləri ikitərəfli proses olmalıdır, o cümlədən həm valideynlərin uşaqlarının davranışlarına dair bilikləri, xahişi və nəzarətini, həm də uşaqların valideynlərini öz həyatlarının bir hissəsi etmək istəyini ehtiva etməlidir*" [13, s. 1083]. Stattin və Kerr belə bir fikir irəli sürürlər ki, ilk növbədə valideynlərin yeniyetmələrin fəaliyyəti haqqında yeniyetmənin özünü açıqlamasına əsaslanan bilikləri, valideynlərin aktiv nəzarəti və ya birbaşa izləməyə çalışan

davranışları ilə müqayisədə problemli davranışların daha etibarlı proqnozlaşdırıcısıdır.

Digər tərəfdən, bəzi tədqiqatlar müsbət valideyn davranışlarının qoruyucu təsirlərinin oğlanlara nisbətən qızlar üçün daha qabarıq olduğunu və qızların oğlanlara nisbətən valideynlərinə daha çox məlumat verdiyini aşkar etmişdir[23, s. 123]. Körpələrə və məktəbəqədər yaşlı uşaqlara qarşı laqeydlik və sui-istifadə hallarına daha çox rast gəlinir və yaş artdıqca bu nisbət azalır. Cinslə əlaqədar olaraq demək olar ki, qız uşaqlar oğlan uşaqlara nisbətən daha çox laqeydliyə və sui-istifadəyə məruz qalırlar [3, s. 1-18].

Yeniyetmələr üçün valideynlik fəaliyyətinin monitorinqlə yanaşı müsbət ünsiyyət (məsələn, valideyn və yeniyetmə bir-birinin dediklərinə nə dərəcədə qulaq asırlar) komponenti də araşdırma mövzularından biri kimi qarşıya çıxır. Valideynlə yeniyetmə arasında zəif ünsiyyətin varlığı daha yuxarı səviyyədə hüquq pozuntusu və ümumi deviasiya ilə əlaqələndirilmişdir [8, s. 1036]. Ünsiyyət valideyn-yeniyetmə münasibətlərinin yaxşılaşdırılmasına xidmət edə bilər, belə olan halda bu, valideyn dəyərlərinin internalizasiyasını artırır və deviasiyanı azaldır. Bilavasitə yeniyetmələrin fəaliyyətinə valideyn nəzarəti vasitəsilə deviasiyanın azaldılmasına xidmət edən monitorinqdən fərqli olaraq, bu üsul vasitəli nəzarətdir.

Laqeydlik anlayışı da nəzarətsizlik anlayışının nəzərdə tutduğu mənanı ehtiva edən anlayışlardan biridir, çünki laqeydlik həm də nəzarətin olmaması və ya öhdəlik daşıyan böyüklərin uşağa adekvat qida, yaşayış sahəsi, paltar, təhsil və ya təməl sağlamlıq xidmətinin göstərilməsinə diqqət yetirməməsi deməkdir. Bu, həmçinin emosional dəstək və məhəbbətin olmaması, uşağa xroniki diqqətsizlik, uşaqda mövcud olan əlamətlərə və siqnallara nəzər yetirilməməsi nəticəsində psixoloji və ya əqli probemlərin meydana çıxmasını da nəzərdə tutur.

Ən ümumi şəkildə, laqeydlik, valideynin və ya qəyyumun uşağın inkişafını təhdid edən və ya ona zərər verən əsas ehtiyaclarını, məsələn, sevgi, sığınacaq, mühafizə, nəzarət, təhsil, sağlamlıq, qidalanma və psixoloji dəstək kimi təmin edə bilməməsidir. Laqeydliyin müxtəlif növləri təsvir edilmişdir, bunlara fiziki və emosional laqeydlik, aktiv və passiv laqeydliyi misal göstərə bilərik. Digər pis rəftar növlərindən fərqli olaraq, laqeydlik, uşağın ehtiyac duyduğu şeylərdən məhrum olması halıdır.

Laqeydliyin uşaqlara qarşı pis rəftarın ən geniş yayılmış forması olması ilə bağlı onilliklər boyu davam edən mübahisələrə baxmayaraq, onun empirik araşdırılması uşaqlıqda pis rəftarın digər formaları ilə müqayisədə xeyli geri qalır.

İndiyə kimi aparılmış tədqiqatların nəticələri yeniyetmələrdə anti-sosial davranışın və cinayətkarlığın inkişafında valideyn məlumatlılığının və ailə münasibətlərinin keyfiyyətinin əhəmiyyəti ilə yanaşı həmyaşıd qrupunun təsirini də sübut edir. Yeniyetməlik dövründə ailə ilə keçirilən vaxt getdikcə azalır və bu, həmyaşıdlarla birlikdə keçirilən vaxtın getdikcə artmasına səbəb olur. Ailələri tərəfindən əsas emosional və sosial ehtiyaclarını ödənilməyən yeniyetmələr onlara aidiyyət hissini təmin edən deviant dəstələrə qoşulmaq təhlükəsinin daşıyıcısına çevrilirlər.

Valideynlik təcrübələri üzrə araşdırmalar müəyyən etmişdir ki, valideyn biliklərinin aşağı səviyyəsi, valideyn dəstəyinin aşağı səviyyəsi və kəskin valideyn-yeniyetmə münaqişəsi yeniyetmələrin deviant həmyaşıdlar qrupuna bağlılığını artırmaqla, birbaşa və dolayı yolla anti-sosial davranışla əlaqəlidir.

Yeniyetməliyin sonlarına yaxın, valideyn-yeniyetmə münasibətlərində konflikt səviyyəsi zaman keçdikcə azalır və yaxınlıq yenidən bərpa olunur [16, s. 331-361]. Buna görə də, valideyn biliklərinin, valideyn dəstəyinin və valideyn-yeniyetmə münaqişəsinin antisosial davranışa təsiri erkən yeniyetməlik dövründə xüsusilə aydın görünür.

Yeniyetməlik dövründə valideynlərin həssaslığı və adekvat reaksiyası uşaqları növbəti fəaliyyət səviyyəsinə müşayiət etmək imkanı əldə etmək baxımından vacibdir, çünki onlar muxtariyyətə can atırlar və bu zaman valideynlər müxtəlif kontekstlərdə uşaqlarını dəstəkləmək üçün yeni yollar tapmaqda çətinlik çəkirlər. İsti, yaxın və dəstəkləyici valideynlik müsbət yeniyetmə-valideyn münasibətlərini və yeniyetmələrin valideynlərinə açıqladığı məlumatların miqdarını və dərinliyini təyin edir ki, bu da öz növbəsində yeniyetmələrin dostları və fəaliyyətləri haqqında valideynlərin biliklərinin artması və anti-sosial yeniyetmə davranışlarının səviyyəsinin azalması ilə nəticələnə bilər. Kerr, Stattin və

Trostun qeyd etdiyi kimi, uşaqların valideynləri ilə münasibətlərinə dair baxışları onların nə dərəcədə güvənildiklərini hiss etmələri ilə güclü şəkildə əlaqəli görünür [12, s. 737-752]. Uşaqlara güvənmək daha yüksək səviyyələrdə azadlıq, daha böyük qərar qəbul etmə məsuliyyətini təhvil vermək deməkdir ki, bu da bilik, yetkinlik və təcrübə tələb edən mərhələli prosesdir. Övladlarına güvənən valideynlər onların hər bir vəziyyətdə, xüsusən də, onlar orada olmadıqda dürüst və etibarlı davranacaqlarına və öz hərəkətlərinə görə məsuliyyət daşıyacaqlarına inanırlar.

Digər tərəfdən, aşağı inam səviyyəsinin var olmasında yeniyetmələrin uyğun olmayan keçmiş davranışlarının təsiri ola bilər, çünki delinkvent yeniyetmələr etibarsız olduqlarını valideynlərinə nümayiş etdirmiş olurlar və onların valideynləri onlara emosional münasibət bəsləməkdən getgedə uzaqlaşırlar. Dişion, Nelson və Bullok tərəfindən təklif olunan "vaxtından əvvəl muxtariyyət" modelində qeyd edildiyi kimi, uşaqları deviant davranışlara meyl etdikdə valideynlər onlardan uzaqlaşmağa meyllidirlər [5, s. 515-530].

Nəticə etibarı ilə, valideynin üz döndərməsi (yəni, valideynlərin öz valideynlik öhdəliklərindən imtina etməsi) yeniyetmələrdə cinayətkar davranış imkanlarını daha da artırır ki, bu da öz növbəsində valideynlik təcrübələrinə daha da mənfi təsir göstərir və zaman keçdikcə valideyn-yeniyetmə münasibətlərinin daha da azalmasına səbəb ola bilir.

Valideynlik metodları üzrə ədəbiyyat adətən ana-uşaq cütlüyünə diqqət yetirir və nəticədə bu ikili əlaqənin uşağın həyatında ən əhəmiyyətli amil olduğunu göstərir. Daha az hallarda atalar valideynlik məsələlərinin müzakirəsinə daxil edilir. Bununla belə, ata-övlad münasibətlərinin dinamikası öz xüsusiyyətlərinə görə unikaldır və uşağın ümumi inkişafında əhəmiyyətlidir. Buna görə də, adaptiv valideynlik məsələsində ataların fərqli töhfələri nəzərə alınmalıdır.

Lamb, Hopps və Elster ataların valideynlik rolunda iştirakının üç yolunu qeyd edirlər. Birincisi, atanın xüsusi fəaliyyətlərdə və uşağa qulluq qaydalarında yer aldığı interaktiv komponentdir. İkincisi, mövcudluq komponenti, atanın uşaq üçün birbaşa və ya dolayı əlçatanlıq səviyyəsi ilə bağlıdır. Üçüncüsü, məsuliyyət komponentidir ki, bu da ataların uşağın əsas ehtiyaclarının ödənilməsini və lazımi resursların onun üçün mövcud olmasını təmin edən provayder rolunu mənimsəməsini ifadə edir [14, s. 39-48].

Bu hissəyə qədər biz sosial nəzarət, psixoloji nəzarət, valideynlik üslubları, valideyn monitorinqi, müsbət ünsiyyət, özünüaçıqlama və laqeydlik kimi konkret məhfumların izahını verməklə valideyn nəzarətinin tərkib hissəsi ola biləcək komponentlərin açıqlanması üzərində fokuslandıq (fikrimizi cəmlədik).

Son olaraq isə bu məfhumların ifadə etdiyi anlayışın var olma səbəblərini və fəaliyyət sxemini izah edən əsas nəzəriyyələrə müxtəsər şəkildə nəzər salmaq mövzu ilə bağlı tam aydın təsəvvür yaratmaq üçün faydalı ola bilər.

Valideyn-uşaq münasibətlərindəki pozulmaların izahının bir çox pedaqoji ədəbiyyatlarda bağlanma nəzəriyyələri ilə izah edildiyini görürük. Bu nəzəriyyələr, xüsusilə də körpəlik dövründə uşağa qayğı göstərən şəxslə uşaq arasında bağlanmanın doğru olmayan sxemlərlə qurulmasının uşağın sonrakı dövrdəki davranış problemlərinin əsası kimi göstərirlər. Pedaqoji çərçivədən uzaqlaşaraq, insanlararası münasibətlər prizmasından məsələyə baxdıqda, bu nəzəri əsaslar Hirşinin sosial bağlar nəzəriyyəsinin ifadə etdiyi fikirlərə uyğundur. Bu perspektivə görə, tək valideynlə uşaq arasındakı güclü bağlar, tam bir ailədə yaşayan, lakin bioloji valideynləri ilə daha zəif əlaqələri olan uşaqla müqayisədə cinayət törətmə ehtimalını azaldır və onun qarşısını alır [11, s. 132-139]. Başqa sözlə, cinayət törətməyə ən çox təsir edən faktor ailə quruluşu və uşağın birlikdə yaşadığı bioloji valideynlərin sayından çox, onun valideynləri ilə olan əlaqəsinin gücü və keyfiyyətidir. Məsələn, ailə quruluşunun və valideynlik təcrübələrinin vasitəçilik təsirini araşdıran bir araşdırmada Griffin və digərləri aşkar etmişdirlər ki, ana ilə bağlılıq və birlikdə keyfiyyətli vaxt keçirmək (məsələn, yemək paylaşmaq) tək valideynli ailələrdən olan gənclərdə, xüsusən də qızlarda aqressiya və deviant fəaliyyətin azalması ilə nəticələnə bilər [9, s. 174-184].

Hirşinin nəzəriyyəsi sosiologiyada sosial sanksiyalara və xarici nəzarətə diqqət yetirən klassik nəzarət nəzəriyyəsinin bir variantıdır. Hirşi hesab edirdi ki, burada əsas element özünə nəzarətin olmamasıdır və bu, erkən inkişafda

valideynlərə bağlılığın formalaşmamasının nəticəsidir ki, bu da öz növbəsində, digər şərti fərdlərlə münasibətdə bağlılığın formalaşmamasına səbəb olur, ənənəvi fəaliyyət istiqamətlərinə sadiqliyin və əxlaqi nizamın legitimliyinə inamın olmamasına təkan verir [10, s. 3-9].

Yanq qeyd edirdi ki, aqressiv valideynliyin xüsusi növlərini yaşamaq uşaqlarda özləri, şəxsiyyətlərarası münasibətlər və dünya haqqında uyğunsuz inancların inkişafına səbəb olur [22, s. 316-332]. Yanqın fikrincə, burada ən əhəmiyyətlisi odur ki, Boulbinin uşağın təhlükəsiz bağlanma ehtiyacı adlandırdığı ehtiyac baxıcılar tərəfindən qarşılanmadıqda, uşaq emosional məhrumiyyət, tərk edilmə, inamsızlıq, sosial izolyasiya və ya qüsurluluq və utanc mövzularını əhatə edən əsas inancları inkişaf etdirir. Bu sxemlər sonrakı həyatda pozulmuş psixo-sosial fəaliyyətlə əlaqələndirilir və həmçinin valideynlik keyfiyyətinin azalması ilə özünü göstərə bilir.

Bu məsələ ilə bağlı əksər tədqiqatçılar razılaşır ki, valideynlik təcrübələri və valideynliyin keyfiyyəti ardıcıl nəsillər arasında nisbətən sabit qalır, ola bilsin ki, müxtəlif psixo-sosial problemlərin nəsillərarası saxlanmasına töhfə verir [4, s. 1276]. Buna görə də, valideynlik təcrübələrinə və onların nəsillərə ötürülməsinə təsir edən amillər onilliklər ərzində inkişaf, klinik və təhsil psixologiyasında tədqiqatlar üçün mühüm predmet olmuşdur. Valideynlər adətən uşaqlıqda məruz qaldıqları valideynlik nümunələrini avtomatik olaraq təkrarlayırlar. Koqnitiv terapiyada bu fenomen əsas inanclar və ya sxemlər anlayışı ilə izah olunur. Sxemlər anlayışı ilk dəfə 1967-ci ildə Bek tərəfindən koqnitiv terapiyaya daxil edilmişdir, o, bu uzunmüddətli idrak strukturlarının uşaqlıq dövründə inkişaf etdiyini qeyd etmişdir [2].

Yanq, Bek və digər tədqiqatçılar, xüsusi Erkən Uyğunsuzluq Sxemlərinin (EMS) uşaqlıq dövründə şəxsiyyətlərarası qarşılıqlı əlaqə vasitəsilə inkişaf etdiyini və sonrakı təcrübənin şərhinə rəhbərlik edən bir şablon təşkil etdiyini təklif edir [1, s. 406]. Digər idrak zəiflikləri ilə müqayisədə, EMS-lər daha qeyd-şərtsiz, avtomatik və yüksək səviyyədə mənfi təsirlər yarada bilən fenomen hesab olunur, çünki onlar muxtariyyət və yaxınlıq kimi əsas həyat mövzularına aiddir.

Valideynlə uşaq arasında emosional münasibətlərin fəaliyyət sxemini ən aydın izah edən nəzəriyyələrdən biri kimi qarşımıza Valideynlərin Qəbul-Rədd Etmə Nəzəriyyəsi (PARTheory) çıxır.

Nəzəriyyənin yaradıcısı Rohnerin qeyd etdiyi kimi, bu nəzəriyyə övladlarına şifahi və ya fiziki olaraq sevgi və qayğı göstərən valideynlər və övladlarına qarşı rədd, ikrah hissləri və ya həddindən artıq tərbiyəvi tələblər nümayiş etdirən valideyn qruplarından bəhs edir. Nəzəriyyə, bunun ardınca valideyn fiqurlarından kənara çıxır və həyat boyu affektiv əlaqələr qurmağın mümkün olduğu insanları (bacı-qardaşlar, babalar, nənələr, dostlar, müəllimlər, yoldaşlar, həmyaşıdlar və s.) əhatə edir [17, s. 2-16]. Bu dəyişiklikdən sonra nəzəriyyənin adında da dəyişiklik edildi və müəlliflərin istəyi nəticəsində “şəxsiyyətlərarası” (interpersonal) sözünün əlavə olunması ilə, nəzəriyyə 2014-cü ildən etibarən IPARTheory adlanmağa başladı.

IPARTheory-ə görə, uşaqların sosiallaşması valideynlərinin qəbul və ya rədd etməsini uşaqların necə qəbul etmələrindən təsirlənir. Rohnerə görə, qəbul və rədd bir sahənin (valideynlik) iki qütbüdür; bir qütbdə sevgi davranışları, şifahi və fiziki şəfqət, digər ucunda isə valideynlər tərəfindən rədd edilmə, sevginin olmaması və ya geri çəkilməsi və zərərli psixoloji və fiziki davranışlar yer alır [18, s. 81-95].

Valideynlərin rədd etməsinin üç fərqli ifadəsi var: a) düşmənçilik və aqressivlik, b) laqeydlik və etinasızlıq, c) indiferent (biganə, laqeyd) imtina. Bu nəzəriyyə valideynlərin qəbul-rədd etməsi ilə bağlı uşaqların qavrayışına üç alt nəzəriyyə ilə yönəlmişdir: Şəxsiyyət Alt Nəzəriyyəsi: emosional ehtiyaclar, bağlılıq və müsbət cavablar, Öhdəsindən Gəlmə Alt Nəzəriyyəsi: özü, başqaları və kontekst arasında qarşılıqlı əlaqə və Sosiomədəni Sistemlər Alt Nəzəriyyəsi, bu sonuncu alt nəzəriyyə valideyn davranışının ailə, icma və mədəni alt sistemlər tərəfindən müəyyən edilən ekoloji sistemdə baş verdiyini izah edir [7, s. 652-659]. Bu, çoxşaxəli izah sayəsində IPARTheory nəzarət mexanizminin nəzəri əsası kimi istifadə oluna biləcək ən münasib nəzəriyyələrdən biridir.

**Nəticə**

“Valideyn nəzarəti” və “valideyn nəzarətsizliyi” anlayışlarının akademik ədəbiyyatlarda az

hallarda istifadə olunan anlayışlar olduğunu görürük. Valideyn nəzarəti anlayışına ən yaxın mənada istifadə olunan anlayış valideyn monitorinqi anlayışıdır. Yeniyetməlik dövründə nəzarətin mexanizmləri dəyişikliyə uğrayır və bu dövrdə valideynin kompleks yanaşma ilə həmyaşıd təsirini də nəzərə alması vacibdir. Uşaq davranışları üzərindəki nəzarətsizlikdən törəyən əsas mənfi nəticələr anti-sosial uşaq davranışlarıdır. Bu davranışların qarşısının alınmasında valideyn monitorinqi ilə yanaşı uşağın özünüaçıqlamasını təmin etməyin də müsbət təsiri fərqli tədqiqatlarda sübut olunmuşdur. Laqeydlik anlayışı da nəzarətsizikla oxşar mənada istifadə olunan anlayışdır, lakin nəzarətsizlik laqeydlikdən daha geniş anlayış olduğu üçün onları eyniləşdirmək olmaz. Nəzarətin mexanizmlərini və nəzarətsizliyin meydana çıxma səbəblərini isə sosial nəzarət nəzəriyyəsi, Hirşinin sosial bağlar nəzəriyyəsi, Erkən Uyğunsuzluq Sxemləri, Valideynlərin Qəbul-Rədd Etmə Nəzəriyyəsi, Boulbinin bağlanma nəzəriyyəsi kimi müxtəlif nəzəriyyələrlə izah etmək mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Ashley E. H., Curtin L., (2002), Parental Perceptions, Early Maladaptive Schemas, and Depressive Symptoms in Young Adults. Cognitive Therapy and Research, Vol. 26, No. 3.
2. Beck, A. T., (1967). Cognitive therapy and the emotional disorders. New York: International University Press.
3. Bilir S., Ari M., Dönmez B. N., Atık B, San P., (1991). An investigation of the frequency of physical pun-ishment of 50473 children between 4-12 years in 16 cities of Turkey. Ana Çocuk Sağlığı ve Egitimi Dergisi, 5: 1-18.
4. Conger R. D., Belsky J., Capaldi D. M., (2009). The intergenerational transmission of parenting: closing comments forthe special section. Developmental Psychology.
5. Dishion T. J., Nelson S. E., Bullock B. M., (2004). Premature adolescent autonomy: parent disengagement and deviant peer process in the amplification ofproblem behaviour. Journal of Adolescence.
6. Dishion T. J., Robert J. M., (1998). “Parental Monitoring and the Prevention ofChild and Adolescent Problem Behavior: A Conceptual and Empirical Formulation.” Clinical Child and Family Psychology Review 1:61-75.
7. Fernandez G., Pena C., Rodriguez M., (2017). Parental control in interpersonal acceptance-rejection theory: a study with a Spanish sample using Parents' Version of Parental Acceptation-Rejection/Control Questionnaire.
8. Forehand R., Miller K. S., (1997). Role of Parenting in Adolescent Deviant Behavior: Replication Across and Within Two Ethnic Groups. Journal of Consulting and Clinical Psychology. Vol. 65, No, 6.
9. Griffin K. W., Gilbert J. B., Lawrence M. S., Tracy D., Nicole L. M., (2000). “Parenting Practices as Predictors of Substance Use, Delinquency, and Aggression among Urban Minority Youth: Moderating Effects of Family Structure and Gender.” Psychology of Addictive Behaviors.
10. Hirschi T., (1969). Causes of Delinquency. Berkeley: University of California Press.
11. Hirschi T., (1983). “Families and Crime.” The Wilson Quarterly.
https://www.yourarticlelibrary.com/sociology/social-control-the-meaning-need-types-and-other-details/8533
12. Kerr M., Hakan S., Kari T., (1999). “To Know You Is to Trust You: Parents' Trust is Rooted in Child Disclosure of Information.” Journal of Adolescence.
13. Kerr M., Hakan S., Kari T., (2000). “Parental Monitoring: A Reinterpretation.” Child Development 71:1072-1085.
14. Lamb M. E., Hopps K., Elster A. B., (1987). Strange situation behavior of infants with adolescent mothers. Infant Behavior and Development.
15. Lamborn S. D., Mounts N. S., Steinberg L., Dornbusch S. M., (1991). Patterns of competence and adjustment among adolescents from authoritative, authoritarian, indulgent, and neglectful families. Child Development, 62.
16. Lerner R. M., Steinberg L., (2014), Handbook of Adolescent Psychology.
17. Rohner, R. P., (1975). They love me, they love me not; a worldwide study ofthe effects ofparental acceptance-rejection. New Haven, CT: HRAF.
18. Rohner, R. P., Brothers, S. A., (1999). Perceived parental rejection, psychological

maladjustment, and borderline personality disorder. Journal of Emotional Abuse.

19. Social Control: The Meaning, Need, Types and other details: https://www.yourarticlelibrary.com/sociology/social-control-the-meaning-need-types-and-other-details/8533

20. Steinberg L., (2005). Psychological Control: Style or Substance? New Directions for Child and Adolescent Development.

21. Tian Y., Yu C., Lin S., Lu J., Liu Y., Zhang W., (2019). Parental Psychological Control and Adolescent Aggressive Behavior: Deviant Peer Affiliation as a Mediator and School Connectedness as a Moderator. Front. Psychol. 10:358. doi: 10.3389/fpsyg.2019.00358

22. Van Vlierberghe L., Braet C., Bosmans G., Rosseel Y., Bogels S., (2010). Maladaptive schemas and psychopathology in adolescence: On the utility of Young's schema theory in youth. Cognitive Therapy and Research.

23. Yanping J., Chengfu Y., Wei Z., Zhenzhou B., Jianjun Z., (2016), Peer Victimization and Substance Use in Early Adolescence: Influences of Deviant Peer Affiliation and Parental Knowledge. Springer Science+Business Media. New York.

**Рамиль Руслан оглы БАБАЕВ**
Институт Философии и Социологии НАНА
E-mail: Rbtlvrp@gmail.com

## КОНЦЕПТУАЛИЗАЦИЯ РОДИТЕЛЬСКОГО КОНТРОЛЯ

### Резюме

Основной целью статьи является описание элементов, входящих в состав родительского бесконтрольности, являющейся одним из видов жестокого обращения с детьми. Статья начинается с введения в концепции социального и психологического контроля. Здесь затрагивается понятие контроля в повседневном обиходе и эквиваленты этого понятия в социологии и психологии. Роль возраста ребенка, пола родителя, общения родителей и детей в родительском контроле описана в этой описательной статье.

**Ключевые слова:** *социальный контроль, психологический контроль, родительский контроль, позитивная коммуникация, самораскрытие, пренебрежение.*

**Ramil Ruslan BABAEV**
ANAS Institute of Philosophy and Sociology
E-mail: Rbtlvrp@gmail.com

## CONCEPTUALİZATİON OF PARENTAL CONTROL

### Summary

The main purpose of the article is to describe the elements that are part of parental lack of control, which is one of the types of child maltreatment. The article begins with an introduction to the concepts of social and psychological control.

Here, the concept of control in everyday use and equivalents of this concept in sociology and psychology are touched upon. The role of the child’s age, parent’s gender, parent-child communication, etc. in parental control is described in this descriptive article.

**Keywords:** *social control, psychological control, parental monitoring, positive communication, self-disclosure, neglect.*

**Daxil olub:** 02.8.2022
**Access date**